# Arıçılara subsidiya verilir

Qəbələ rayonunda arıçılıqla məşğul olan 657 arıçıya saxladıqları 9670 arı ailəsinə görə dövlət büdcəsinin vəsaiti hesabına subsidiyanın verilməsi nəzərdə tutulur. İlkin mərhələdə 205 arıçının təsərrüfatlarında olan 4243 arı ailəsinə identifikasiya kodu verilib və Respublika Komissiyasının qərarına əsasən, onlara 42 min 430 manat subsidiya ödənilib.



Bu barədə müxbirimizə Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzinin heyvandarlıq sektorunun müdiri Şamil Osmanov məlumat verib.

O bildirib ki, arıçılara subsidiyanın verilməsi dövlət başçısının "Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında" 2018-ci il 5 mart tarixli Sərəncamına əsasən həyata keçirilir. Sərəncamın icrası olaraq, arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə görə dövlət büdcəsinin vəsaiti hesabına 10 manat məbləğində subsidiya ödənilir.

Mərkəzin rəsmisi deyib ki, daha 207 arıçının təsərrüfatlarında olan 3122 arı ailəsi identifikasiya kodu ilə təmin edilib və sənədlər hazırlanıb. Respublika Komissiyasında baxıldıqdan sonra həmin arıçılara da subsidiyanın ödənilməsi təmin olunacaq.

**Rais RƏŞİDOV,**
**"Qəbələ"**

# Taxıl sahələrində ziyanvericilərə qarşı mübarizə tədbirləri aparılır

Rayonumuzun taxıl əkini sahələrində ziyanvericilərə qarşı mübarizə tədbirləri davam etdirilir.



Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən müxbirimizə bildirilib ki, cari ilin məhsulu üçün 15790 hektarı buğda, 4400 hektarı arpa olmaqla, 20190 hektarda taxıl əkilib və sahələrdə normal bitiş alınıb. Havaların quraq keçməsi dəmyə torpaqlardakı taxıl sahələrinə ziyanvericilərin həddən artıq zərər vurmasına səbəb olur.

Fermerlər tərəfindən "Brodifakum" preparatı ilə aldadıcı yem hazırlanaraq əkin sahələrində yuva salmış gəmiricilərə qarşı kimyəvi mübarizə aparılıb. Kimyəvi maddələrlə işləyərkən təhlükəsizlik tədbirlərinə ciddi əməl olunması məqsədilə fermerlər və fiziki şəxslər təlimatlandırılıb.

Hazırda taxıl sahələrində gəmiricilərə qarşı mübarizə tədbirləri davam etdirilir.

**Səhrab UMUYEV,**
**«Qəbələ»**

# Bu il 400 hektarda yeni fındıq bağları salınacaq

Dövlətimizin başçısının fındıqçılığın daha da inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıq və göstərişlərin icrasını təmin etmək məqsədilə son illər rayonumuzda davamlı iş aparılır. Təkcə ötən il fermerlərimiz tərəfindən 600 hektarda yeni fındıq bağları salınıb. Cari ildə fındıq bağlarının daha 400 hektar artırılması nəzərdə tutulur.



Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzindən verilən məlumata görə hazırda rayonda 6 min 27 hektar fındıq bağları var. Bu bağların 4 min 827 hektarı barverəndir. Ötən il fındıq bağlarından 7 min 148 ton məhsul tədarük olunub. Fındıq istehsalı əvvəlki illə müqayisədə 125 ton artıb.

**Nahidə ƏBDÜRƏHİMOVA,**
**"Qəbələ"**

# Ət istehsalı artıb

Ötən il ölkədə diri çəkidə ət istehsalı 3 faiz artaraq 556,6 min ton, süd istehsalı 2,8 faiz artaraq 2 milyon 80,4 min ton olub.

Dövlət Statistika Komitəsinin məlumatında il ərzində yumurta istehsalı 2,3 faiz azalaraq 1 milyard 674,7 milyon ədəd, yun istehsalı isə 1,2 faiz azalaraq 15,8 min ton olduğu bildirilir.

2018-ci ildə hər inək və camışdan orta hesabla 1589 kiloqram süd sağılıb.

İlkin məlumatlara görə, bu il yanvarın 1-nə ölkə üzrə 8 milyon 357,9 min baş qoyun və keçi, 2 milyon 666,6 min baş iribuynuzlu mal-qara, o cümlədən 1 milyon 282,3 min baş inək və camış mövcud olub. Qaramal naxırının 48,1 faizini inək və camışlar təşkil edir.

Ötən il quşçuluq fabriklərində diri çəkidə 74,4 min ton quş əti və 640,2 milyon ədəd yumurta istehsal olunub. Ümumilikdə, fabriklər üzrə cəmi quşların sayı 12 milyon 257 min baş olub.



Bundan başqa, ölkədə 514 ton barama istehsal olunub ki, bu da son 20 ilin ən yüksək göstəricisidir.

# Qəbələdə arıçılığa diqqət var



Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzində rayon arıçılar assosiasiyasının təşkilatçılığı ilə arıçılıqla əlaqədar geniş seminar-müşavirə keçirilmişdir.

Bakı şəhərində keçirilən "V Azərbaycan Beynəlxalq Arıçılıq konfrası"nda iştirak etmək üçün ölkəmizə gəlmiş Bursa Uludağ Universitetinin professoru Levent Aydın və Samsun Tarım İl Müdürliyinin mütəxəssisi Ali Korkmaz rayonumuzda olmuş və rayon dövlət aqrar inkişaf mərkəzində arıçılarla görüşmüşlər.

Tədbirdə Şəki, Oğuz, Ağdaş və İsmayıllı arıçıları da iştirak etmişlər.

Levent Aydın "Arı xəstəlikləri və arıçılıqda dərman pereparatlarının işlənməsi", Ali Korkmaz isə "Ana arının yetişdirilməsi və seçilməsi" mövzularında arıçılara geniş məlumat vermişlər.

Tədbirin sonunda mütəxəssislər arıçıları maraqlandıran suallara ətraflı məlumat vermişlər.

**Şamil OSMANOV,**
**mərkəzin heyvandarlıq sektorunun müdiri.**
**İlkin Vəlizadə (foto).**

# Kənd təsərrüfatı məhsulunun dəyəri 7 milyard manatı keçib



2018-ci il üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 7 milyard 10 milyon manat təşkil edib. Bunun 3 milyard 824 milyon manatı heyvandarlıq, 3 milyard 186 milyon manatı isə bitkiçilik məhsullarının payına düşüb.

Dövlət Statistika Komitəsinin məlumatına görə ötən il 2017-ci illə müqayisədə kənd təsərrüfatının istehsalı 4,6 faiz, o cümlədən heyvandarlıq məhsullarının istehsalı 2,7 faiz, bitkiçilik məhsullarının istehsalı 6,8 faiz artıb.

# Düzgün qidalanma sağlamlığın əsasıdır

*Yediyimiz qidalar orqanizmimizin infeksiya və xəstəliklərə davam gətirmək qabiliyyətinə təsir göstərir. Orqanizmimizi bol çeşidli qidalarla, təzə və faydalı məhsullarla qidalandırmalıyıq.*

*Gündəlik rasiona əsasən buğda, qarğıdalı, düyü, kartof, təzə meyvə-tərəvəz, ət, balıq, yumurta, süd, habelə mərci və lobya kimi paxlalılar daxil edilməli, kəpəkli qarğıdalıya, yulafa, buğdaya və düyüyə üstünlük verilməlidir. Çünki onlar sellülozla zəngindir və toxluq hissini uzun müddət təmin edir.*

*Yüngül qəlyanaltı etmək üçün tərkibində şəkər, duz və yağlar çox olan məhsullar əvəzinə faraş tərəvəz, duzlanmamış qoz-fındıq və təzə meyvə seçilməlidir.*

*Duz qan təzyiqini artırdığına, ürək xəstəliklərinə və insulta yol açdığına görə duzlu yeməklərdən imtina edilməlidir. Kərə yağlarını çox vaxt raps, qarğıdalı və ya günəbaxan yağları ilə əvəz etmək lazımdır. Qırmızı ətdə piyin miqdarı yüksək olduğuna görə ağ ətə üstünlük verilməli, buxarda və ya suda bişirilmiş ət xörəklərindən istifadə olunmalıdır.*

# Qeyri-neft sektoruna qoyulan sərmayə 22 faiz çoxalmışdır

2018-ci ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 17 milyard 238,2 milyon manat vəsait yönəldilmiş, sərf olunmuş vəsaitin 68 faizini bilavasitə tikinti-quraşdırma işlərinin dəyəri təşkil etmişdir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il neft sektoruna yatırılmış investisiyaların həcmi azalsa da, qeyri-neft sektoruna yönəldilmiş vəsaitin həcmi 22, o cümlədən qeyri-neft sənayesinə qoyulmuş investisiyalar 23 faiz artmışdır. Ümumi sərmayənin 67,6 faizi məhsul istehsalı və 24,8 faizi xidmət sahələrinin, 7,6 faizi isə ümumi sahəsi 2 milyon 84,7 min kvadratmetr olan yaşayış evlərinin tikintisinin payına düşmüşdür. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsait ümumi sərmayənin 69,7 faizini təşkil etmişdir.

Əsas kapitala yönəldilmiş sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 52,7, bank kreditləri 11, büdcə vəsaitləri 25,8, əhalinin şəxsi vəsaitləri 8,2, büdcədənkənar fondların vəsaitləri 1,6, digər vəsaitlər 0,7 faiz olmuşdur.